Ümummilli lider və sosial-iqtisadi tərəqqi

Milli iqtisadiyyatın dinamik inkişafı əbədi müstəqilliyimizin etibarlı təminatçısıdır

Azərbaycan xalqının çoxminlik tarixində XX əsr mühüm yer tutur. XX yüzillikdə xalqımız bir neçə əsrə bərabər inkişaf yolu keçmiş, özünün iqtisadi, mədəni tərəqqisinə nail olmuşdur. Tarixi inkişafın, demək olar, bütün mərhələlərində müstəqillik qurbanlar, sarsıntılar tələb etmişdir və bu ağır mübarizədən heç də bütün dövlətlər uğurla çıxmamışlar. Azadlıq əldə edən dövlətlərin bir qismi özlərini qoruyub saxlamış, bəziləri isə dağılıb getmişlər. Bu kimi hadisələrlə zəngin olan tarixi inkişafın elmi təhlilini verərkən, obyektiv olaraq, dövlət başçısının dövləti qoruyub saxlamaq məharəti, onun strategiyasına münasibət bildirilir. Belə bir təhlil subyektiv baxışlardan yox, obyektiv tələbatdan, dövlətin inkişaf qanunauyğunluqlarını, dövlətin idarə olunması prinsiplərini açmaq, gələcək inkişaf strategiyasını müəyyən etmək zərurətindən doğur. Bu gün də əvvəlki dövrlərə nisbətən qat-qat mürəkkəbləşən, qloballaşan dünyada hər hansı bir dövlətin fəaliyyətinə, onun inkişaf dinamikasına dövlət başçısının fəaliyyəti prizmasından baxılır. Dövlət başçısı dövlətin qarantıdır.

Müstəqil Azərbaycanın dinamik inkişafı və dünya inteqrasiyası sisteminə qovuşması mərhələsi müqayisəedilməz dərəcədə məhsuldar və gərgin fəaliyyət göstərən ümummilli lider Heydər Əliyevin adı ilə bağlıdır.

Azərbaycan tarixinin mühüm dövrü ərzində dövlət başçısının respublikamızın sosial-iqtisadi həyatında oynadığı rolu sistemli təhlil edən ən güclü politoloqlar, siyasi xadimlər, tələbkar ekspertlər belə bir nəticəyə gəlirlər ki, Heydər Əliyev çoxsahəli fəaliyyəti və müdrik rəhbərliyi ilə Azərbaycan tarixində unudulmaz və əvəzolunmaz şəxsiyyət, dünya miqyaslı siyasi xadim, bacarıqlı, fenomenal dövlət başçısı, ümummilli lider səviyyəsinə yüksəlmişdir. Məhz onun rəhbərliyi ilə Azərbaycanın dövlət quruculuğunun əsasları qoyulmuş, onun fəaliyyət mexanizmi formalaşmış, müstəqilliyimizin əbədi qorunması üçün fundamental zəmin yaranmışdır.

SSRİ-nin dağılması ərəfəsində respublikamızda mövcud siyasi, ictimai, sosial-iqtisadi vəziyyəti yadımıza salaq. Bu dövrdə ittifaq hökuməti tərəfindən qəbul edilmiş dağıdıcı qərarlar, ölkənin idarə edilməsinin başabəla radikal islahatçılara tapşırılması, "şok terapiyası" adı altında keçirilən sistemsiz islahatlar, dünyanın quru ərazisinin 1/6 hissəsini təşkil edən bir məkanda bir-birilə zəncirvari şəkildə bağlı olan respublikalar arasında əlaqələrin pozulması, ümumi bazar üçün işləyən müəssisələrin fəaliyyətində əsl xaosun yaranması, ənənəvi satış bazarlarının itirilməsi keçmiş müttəfiq respublikaların iqtisadiyyatını, demək olar ki, iflic vəziyyətinə saldı. Bir faktı qeyd etmək yerinə düşərdi. Rusiyanın XX əsrin 80-90-cı illərində böyük siyasi-iqtisadi sarsıntılar nəticəsində itirdiyinin Vladimir Putin Almaniya və Yaponiyanın II Dünya müharibəsi dövründəki iqtisadi itkilərdən heç də az olmadığını qeyd edir. Həmin dövrdə Azərbaycan iqtisadiyyatı da çox ağrılı proseslər keçirirdi. Bu elə bir mərhələ idi ki, xalq təsərrüfatının bütün sahələrində tənəzzül davam edirdi, ölkənin maliyyə-kredit sistemi iflic vəziyyətində idi, böyük zəhmət hesabına uzun illər ərzində qazanılmış mövqelər itirilirdi. Erməni işğalçıları tərəfindən ərazimizin xeyli hissəsinin zəbt edilməsi şəraitində ölkə daxilindəki qeyri-sabit ictimai-siyasi vəziyyət, hakimiyyət uğrunda çəkişmələr təsiri dağıdıcı olan bu neqativ meylləri daha da gücləndirdi. Heç 2 yaşı olmayan müstəqil dövlətimiz yox olmaq təhlükəsinə məruz qalmışdı.

Bu barədə mən 1993-cü ilin avqust-sentyabr aylarında respublika mərkəzi mətbuatında bir neçə məqalə ilə, o cümlədən "İqtisadiyyatı belə idarə etməzlər" başlıqlı yazılarla çıxış etdim. Bu yazılarda qeyd edilirdi ki, professionallıqdan uzaq olan insanların dövlət aparatına idarəetmə qurumlarına cəlb edilməsi respublika iqtisadiyyatına çox baha başa gəldi.

Dövlət rəhbərliyinə Heydər Əliyevin qayıtması ilə respublikamızda xaosun aradan qaldırılması, dövlətçiliyin möhkəmləndirilməsi, intizamın yaradılması üçün düşünülmüş və əsaslandırılmış kurs həyata keçirilməyə başladı. İctimai-siyasi, iqtisadi vəziyyətin sabitləşməsinə, suveren Azərbaycan dövlətinin iqtisadi əsaslarının möhkəmləndirilməsinə xidmət edən kompleks addımlar atıldı. İqtisadiyyatda tənəzzülün qarşısının alınmasında, xalq təsərrüfatında ahəngdarlığın təmin edilməsində həlledici rolu olan sahələrin fəaliyyətinə dair dövlət başçısının iclas və müşavirələrdə çıxışları, problemlərə prinsipial münasibəti müharibə şəraitində olan respublikamız üçün çox böyük əməli, həm də mənəvi əhəmiyyət kəsb edirdi. Artıq 1996-cı ildə iqtisadiyyatda tənəzzül meyllərinin qarşısı alındı. Bütün bunlar yaranmış xaosa, ümidsizliyə sarsıdıcı zərbə, dinamik iqtisadi həyata, onun dirçəlməsinə aparan qələbə idi. Sanki tarix təkrar olunurdu.

Keçən əsrin 60-cı illərinin axırlarında Azərbaycanın sosial-iqtisadi həyatında da gərgin vəziyyət yaranmışdı. Respublikamızın xalq təsərrüfatının bir çox sahələrində geriləmə meylləri güclənir, mövcud istehsal potensialından istifadə səviyyəsi aşağı düşürdü.

Zəngin resurslara, əmək ehtiyatlarına, güclü istehsal potensialına malik olan respublikamızın ittifaqda mövqeyi zəifləyirdi. Məsələn, Azərbaycanda milli gəlirin adambaşına artımı ittifaq üzrə göstəricidən 3 dəfə az idi. Digər əsas göstəricilərə görə də respublikamız demək olar ki, əksər respublikalardan geri qalırdı.

1969-cu ilin avqustunda Heydər Əliyevin respublikamıza rəhbər seçildiyi andan onun apardığı sistemli təhlil, görülmüş tədbirlər nəticəsində artıq 70-ci illərin ortalarında Azərbaycan milli gəlirin artım tempi və digər başlıca göstəricilərə görə ittifaqda birinci yerə çıxdı. İqtisadiyyatın, o cümlədən sənayenin strukturunun təkmilləşməsi, mütərəqqi istehsal sahələrinin üstün inkişafı ilə bağlı hazırlanmış xüsusi proqram müvəffəqiyyətlə həyata keçirildi. On minlərlə yeni iş yerləri açıldı. Respublikanın orta və kiçik sahələrində tikinti materialları, yüngül və yeyinti sənaye müəssisələri, iri maşınqayırma zavodlarının filialları yaradıldı. SSRİ kimi nəhəng ölkənin neft sənayesinə vacib olan avadanlıqların 70 faizə qədəri Bakı müəssisələrinin payına düşürdü. Aqrar sektor o dövrün tələblərinə uyğun olaraq normal fəaliyyət göstərir, respublika əhalisinin yarıya qədərinin yaşayış səviyyəsini təmin edirdi. İttifaq əmək bölgüsünün tələblərinə uyğün, pambıqçılıq, üzümçülük, tərəvəzçilik, çayçılıq daha sürətlə inkişaf etdirilirdi.

Azərbaycan kəndində qaynar həyat hökm sürürdü. Ümumiyyətlə, respublikamızın inkişaf dinamikasını xarakterizə edən göstəricilər hamını heyrətə gətirdi. İstər miqyası, istərsə də sosial-iqtisadi nəticəsinə görə Azərbaycanın müstəqilliyinə qədər olan heç bir dövründə belə dinamik inkişaf olmamışdı.

Əlbəttə, həll edilməyən problemlər də var idi. Axı Azərbaycan SSRİ-nin tərkib hissəsiydi və bütünlüklə bu ittifaqın məlum nöqsanları, catışmamazlıqları respublikaların inkişafına da təsir edirdi. Lakin bu bir inkaredilməz həqiqətdir ki, Azərbaycan respublikası SSRİ tərkibində əsrlərə bərabər böyük inkişaf yolu keçmişdir, həm də bu inkişaf 70-80-ci illərdə özünün sürəti, miqyası sosial-iqtisadi nəticələrinə görə daha əzəmətli olmuşdur. Sovet dövründə, o cümlədən 70-80-ci illərdə yaradılmış elmi-texniki istehsal potensialı olmasaydı, müstəqil dövlətimiz bu gün də çoxlu çətinliklərlə üzləşə bilərdi. Mən bu barədə ona görə bir qədər ətraflı danışıram ki, hələ də bəziləri sovet rejimi şəraitində yaradılan elmi-texniki, intellektual potensiala sovet ideologiyasının qalığı kimi baxır. Bu mövqedə duranlar tarixdən dərs almalı, keçilən yolun, tarixi inkişafın hər bir mərhələsinin obyektiv qiymətləndirilməsinin zəruriliyini dərk etməlidirlər. Bu gün dağılmış sovet sisteminin bərpası üçün heç bir əsas yoxdur. Ancaq o dövrdə də, xüsusilə 70-ci illərdə Azərbaycan xalqı inkişaf etmiş, yaşayıb-yaratmışdır. Bu dövrün elmi-texniki istehsal, intellektual potensialı müstəqil Azərbaycanın bu gününün və sabahının tərəqqisi üçün çox lazımdır.

Qeyd etmək istərdim ki, Heydər Əliyevin, bir tarixi şəxsiyyət kimi, müstəqilliyinin sosial-iqtisadi inkişafla əlaqəsi məsələlərinə münasibətdə çox güclü elmi mövqeyi və yüksək təfəkkür tərzi uğurlu dövlət siyasətinin aparılması üçün müstəsna əhəmiyyət kəsb edir. Dövlət başçısı haqlı olaraq bildirir ki, Azərbaycanın dövlət müstəqilliyi qazanması tarixi nailiyyətdir, ilkin qələbədir. Onun qorunması və möhkəmləndirilməsi qat-qat çətin və mürəkkəb vəzifədir və bu müqəddəs vəzifənin sistemli həlli üçün Heydər Əliyev, zəngin dövlətçilik təcrübəsinə malik olan ölkə başçısı kimi, dünya dövlətləri birliyinin əldə etdiyi meylləri nəzərə aldı və Azərbaycanın xüsusiyyətlərinə, geopolitik şəraitinə, milli mənafelərinə uyğun inikşaf strategiyasını müəyyən etdi.

Ulu Tanrı Azərbaycanı sərvətlər baxımından da ehtiyac cəkməyə qoymayıb. Azərbaycan bu gün dünyanın ən zəngin neft resurslarına malik olan regionlar sırasına daxildir. Respublikamızın, XX əsrdə olduğu kimi, XXI əsrdə də inkişafı xeyli dərəcədə neft faktoru ilə bağlı olacaqdır. Azərbaycan müstəqillik əldə etdikdən sonra ona neft sərvətlərinin sahibi kimi tarixi şans verildi və bundan da dövlət başçısı böyük uzaqgörənliklə istifadə etdi.

Heydər Əliyev qəti əmin oldu ki, ağır vəziyyətdə olan respublika iqtisadiyyatını dirçəltmək, ölkənin dünya inteqrasiyasında iştirakını canlandırmaq üçün ən sanballı mənbə neft faktoru ola bilər. Çünki ölkəmizin daxili maliyyə mənbələri, demək olar ki, yox dərəcəsində idi. Ona görə də xarici investisiyaları cəlb etmək ən məqsədəuyğun bir istiqamət kimi seçildi. 1994-cü ildə "Əsrin müqaviləsi" imzalandı. Respublikaya güclü investisiya axını başlandı. Azərbaycan iqtisadiyyatı, ilk növbədə onun neft sektoru beynəlxalq biznes həyatına qoşuldu. Neft strategiyası müstəqil respublikamızda demokratiyanın inkişafı, ictimai-siyasi sabitliyin həmin edilməsi, milli dövlət quruculuğunun möhkəmləndirilməsi, onun dünya iqtisadiyyatına qovuşması üçün baza yaratdı.

Bizim hamımız bunun hər gün canlı şahidi oluruq. Biz neçə il ərzində ölkə iqtisadiyyatına 6,5 milyard ABŞ dollarlıq investisiya qoyuluşu dövlət başçısının müstəqilliyimizin qorunması naminə titanik fəaliyyəti, çətinliklərə, maneələrə baxmayaraq, mübarizliyi, prinsipiallığı nəticəsində mümkün olmuşdur. Ən əhəmiyyətli cəhət ondadır ki, neft strategiyası təcrid edilmiş şəkildə deyil, bütünlükdə dövlətin milli təhlükəsizliyi, ümumi inkişafı, demokratik cəmiyyətin qurulması konteksində həyata keçirilir. Bu cəhəti ona görə xüsusi vurğulayıram ki, dünyada çox zəngin ölkələr var, onlar respublikamızdan daha çox neft hasil edirlər, lakin bu ölkələrin heç də hamısı bu amilin bəhrəsini görmürlər. Çünki bu ölkələr müstəqil olsalar da, onlarda milli inkişafla milli mənafelər düzgün əlaqələndirilmədi, demokratik institutlar yaradılmadı, sabitliyin əldə edilməsinə xidmət edən sistemli tədbirlər həyata keçirilmədi, ağır sosial sarsıntılara, milli dini, ərazi münaqişələrinə, sosial qurumlar arasındakı təbəqələşmə proseslərinə biganəlik göstərildi. Bütün bunların nəticəsidir ki, bu kimi ölkələrdə inkişaf səviyyəsi hələ də çox aşağıdır.

Azərbaycanın dövlət başçısı isə gənc müstəqil dövlətin strategiyasına sistemli yanaşmaya üstünlük verdi. Dövlət quruculuğu, demokratik cəmiyyətin formalaşması, yeni iqtisadi sistemin hüquqi bazasının qorunması prosesi beynəlxalq hüquq normaları, qarşılıqlı əməkdaşlıq prinsipləri ilə bilavasitə əlaqələndirildi. Məhz bütün bunların nəticəsidir ki, müstəqilliyin ilk illərində ən riskli dövlətlər siyahısına daxil edilən Azərbaycan XX əsrin sonuncu onilliyin ikinci yarısından investisiya qoyuluşu, kreditləri qaytarmaq iqtidarlı, böyük inkişaf imkanları olan ölkə kimi tanındı. Respublikamız indi inkişafın yeni mərhələsindədir. 2002-ci ildə Bakı-Tbilisi-Ceyhan kəmərinin tikintisinin özülünün qoyulması hadisəsini yada salaq. Tam qətiyyətlə demək istəyirəm ki, Azərbaycan dövləti və onun başçısının uzaqgörən siyasətinin tarixi qələbəsi kimi qiymətləndirilən bu hadisə bütün dünyanı özünə cəlb etdi.

Azərbaycan iqtisadiyyatına qoyulmuş investisiyaların dinamikasına nəzər salsaq, burada ətraflı şərhə ehtiyac yoxdur. İnvestisiya varsa, deməli, həyat da dirçəlir, inkişaf edir, modernləşir. Xarici şirkətlərlə əməkdaşlıq ödkəmizin kadr potensialının, onun intellektual mülkiyyətinin güclü olduğunu, neftçi alim və mütəxəssislərimizin fədakarlığını, yaradıcılıq qabiliyyətinin yüksək olduğunu bir daha nümayiş etdirdi. Eyni zamanda bu əməkdaşlıq Azərbaycanın neft-qaz ehtiyatlarının iqtisadi dövriyyəyə cəlb olunmasına, kadr potensialının, beynəlxalq standartlara, ən müasir texnologiyalara bələd olmasına, beynəlxalq biznesin təşkilinin prinsip və metodlarına yiyələnməsinə şərait yaratdı.

Yuxarıda qeyd etdiyim kimi, istər Çar Rusiyası dövründə istərsə də keçmiş SSRİ-nin tərkibində Azərbaycanın iqtisadiyyatında həlledici rol neft sənayesinə məxsus idi. Kapital qoyuluşunun, demək olar ki, çox hissəsi böyük ölkə, imperiya mənafelərinə tabe edilmiş bu sahənin payına düşürdü. Sovet dövründə, xüsusilə 70-ci illərdə respublika iqtisadiyyatının inkişafının birtərəfliliyinin yumşaldılması istiqamətində xeyli işlər görüldü.

MDB məkanında ilk dəfə olaraq Azərbaycanda radikal torpaq islahatı aparılmış, torpaq kəndlinin xüsusi mülkiyyətinə çevrilmişdir. Bu çox böyük tarixi hadisədir. Onun ilk nəticələri bəllidir. Bir sıra sahələrdə dinamik artım əldə olunmuş, ölkə özünün taxılı hesabına ərzaq təhlükəsizliyini təmin etmişdir, ildən-ilə daxili bazarda yerli istehsalın xüsusi çəkisi artmağa meyl edir. Beynəlxalq qurumların, o cümlədən Dünya Bankının köməyilə özəl sektorun inkişafına kömək edən proqramlar həyata keçirilir. Bunun üçün hazırda İqtisadi İnkişaf Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Maliyyə Nazirliyi dövlət başçısının müəyyən etdiyi xəttə müvafiq olaraq sistemli tədbirlər görürlər.

Respublika əhalisinin yarısı kənddə yaşayır. Kəndi qorumaq, kəndin abadlaşdırılmasına qayğını artırmaq, kənddən şəhərə səmərəsiz əhali axınını minimuma endirmək dövlətimizin iqtisadi təhlükəsizliyi baxımından çox zəruridir.

İqtisadiyyat sferası böyük və mürəkkəb bir sistemdir. Bu sistemin normal fəaliyyəti, təbii ki, sistemə daxil olan alt sistemlərin fəaliyyətindən asılıdır. Respublikada aparılan islahatlar bu sahələr də əhatə etmişdir. Rabitə, informasiya texnologiyaları, nəqliyyat, energetika, qaz təchizatı sistemində struktur dəyişiklikləri edilmiş, onların səmərəliliyinin artırılması, normal fəaliyyətlərinin təmin edilməsinin hüquqi bazası əhəmiyyətli dərəcədə möhkəmlənmişdir. Götürək rabitə sistemini. Son illərdə dövlət başçısının iştirakı ilə müasir tələblərə cavab verən rabitə stansiyaları, qovşaqlarının açılması, o cümlədən ucqar kəndlərdə rabitə xidmətinnin yaxşılaşdırılması, rabitə sistemində müasir, ən qabaqcıl texnologiyaların tətbiqi mühüm nailiyyətlər kimi qiymətləndirilməlidir. Bununla belə, dövlət başçısı ölkədə enerji təchizatını, sosial sferanın, əhalinin enerji, qazla təminatının daha da yaxşılaşdırılması, istehlakçıların hüquqlarının qorunması məsələlərinə diqqəti artırmağı müvafiq idarəetmə strukturlarından tələb etmişdir. Çünki yanacaq-energetika sektorunun ahəngdar, səmərəli fəaliyyəti ölkənin iqtisadi təhlükəsizliyi iqtisadiyyatın dinamik inkişafı, əhaliyə qayğını yaxşılaşdırmaq üçün çox vacibdir.

Azərbaycan dünyanın ən əlverişli məkanlarının birində, Şərqlə Qərbin qovuşağında yerləşir. Ancaq bu bir həqiqətdir ki, heç bir dövrdə nəqliyyat faktoru respublikamızın müstəqilliyi üçün indiki kimi fövqəladə rol oynamayıb. Yuxarıda biz Bakı-Tbilisi-Ceyhan boru kəmərinin müstəsna əhəmiyyətini qeyd etdik. Qədim "İpək yolu"nun bərpası, həmin nəqliyyat dəhlizinin dinamik fəaliyyəti üçün strateji istiqamətlərin müəyyən edilməsində mühüm rol oynadı.

Ötən əsrin 90-cı illərinin əvvəllərində SSRİ süquta uğradıqdan və yeni müstəqil dövlətlər yarandıqdan, o cümlədən, Azərbaycan tarixdə ikinci müstəqilliyini qazandıqdan sonra ölkəmiz keçmiş İttifaq respublikalarından biri kimi çox ağrılı proseslər yaşamasına baxmayaraq, bir sıra vacib və önəmli layihələr reallaşdırmağa başladı. Onlardan biri də qədim böyük "İpək Yolu"nun bərpası istiqamətində atılan cəsarətli addımlar idi.

Prezident Heydər Əliyev 1998-ci ilin fevral ayında Yaponiyada ilk rəsmi səfərdə olarkən "En-Eyc-Key" telekanalının müxbirinə demişdir: "İpək Yolu müasir infrastruktur yaradılmasını nəzərdə tutur. Buna görə də Yaponiya bu infrastrukturun yaradılmasına öz maliyyə imkanları ilə, əlbəttə, böyük töhfə verə bilər. Məsələn, Bakı dəniz limanını, Türkmənistanda Türkmənbaşı limanını inkişaf etdirmək olar. Gürcüstana Qara dəniz sahilindəki Poti limanını inkişaf etdirmək lazımdır..."

Ulu öndər Avropa İttifaqı ilə apardığı danışıqlarda Azərbaycanın strateji mövqedə yerləşməsini, Şərqlə Qərb arasında iqtisadi əlaqələrin genişləndirilməsində müstəsna rol oynadığını bildirir, Bakı dəniz limanının, Xəzər Gəmiçilik İdarəsinin bu baxımdan böyük potensiala malik olduqlarını xüsusi olaraq vurğulayırdı. Avropa İttifaqı "İpək Yolu" layihəsi ilə bağlı beynəlxalq səviyyəli bu tədbirin Azərbaycanda keçirilməsinə razılıq verdi. 1998-ci il sentyabrın 20-də Bakı şəhərində "İpək Yolu" layihəsi ilə bağlı Azərbaycanın ev sahibliyi etdiyi geniş və yüksək səviyyəli beynəlxalq konfrans keçirildi.

Belə bir yüksək səviyyəli toplantının baş tutmasında da, heç şübhəsiz ki, müstəqil Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin xidmətləri müstəsna idi. Tədbir Heydər Əliyevin parlaq, əhatəli, son dərəcədə məzmunlu, gələcəyə hesablanmış giriş və yekun çıxışları ilə də yaddaşlarda qaldı. Konfrans müstəqil Azərbaycan dövlətinin iqtisadi qüdrətinin, siyasi nüfuzunun artmasına xidmət edən Heydər Əliyev strategiyasının düzgünlüyünü, reallığını bir daha təsdiq etdi. Bakı sammitinin ölkəmiz üçün, onun sülh, əməkdaşlıq, təhlükəsizlik şəraitində yaşaması üçün nə qədər vacib olduğu barədə Heydər Əliyev demişdir:

"Konfransın Azərbaycanda keçirilməsi ölkəmiz üçün tarixi bir hadisədir. Beynəlxalq konfransın Azərbaycanda keçirilməsi Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsini, inkişaf etməsini və beynəlxalq aləmdə tamamilə tanınmasını nümayiş etdirir. Bu bizim müstəqilliyimizin, suverenliyimizin rəmzidir. Bu, böyük tarixi hadisədir. Vətənini, torpağını, millətini, ölkəsini sevən hər bir azərbaycanlının, Azərbaycan vətəndaşının bu hadisə ilə fəxr etməyə əsası vardır və bununla hər bir adam fəxr edə bilər. Çünki bu, bizim millətimizin, ölkəmizin, dövlətimizin adıdır. Biz müstəqil dövlət kimi Bakı sammitində 32 dövlətin və nüfuzlu beynəlxalq təşkilatların iştirakı ilə nümayəndə heyətlərini qəbul etdik və dünyanın böyük bir hissəsini əhatə edən əraziyə məxsus böyük bir proqramın - tarixi İpək Yolunun bərpası proqramının əsasını qoyduq".

Onu da qeyd edək ki, konfransda işğalçı Ermənistanın Baş naziri Armen Darbinyan da çıxış etdi. Açığı, onun çıxışı müəmmalı idi və daha çox prosesə töhfə vermək deyil, proses ətrafında gərginliyi artırmaq məqsədi güdürdü. Belə ki, onun səsləndirdiyi tezislər və təkliflər çox qaranlıq və həlli mümkün olmayan tezislər və təkliflər idi. Məsələn, o, təklif edirdi ki, Gürcüstanın Batumi və Poti limanlarından başlayıb Yerevandan keçərək Naxçıvana, oradan isə İran Culfasından keçib Tehrana, sonra Mərkəzi Asiya və İran körfəzi ölkələri istiqamətində gedən dəmiryol marşrutu olsun. Yaxud təklif edirdi ki, Türkiyənin Qars şəhərindən başlayıb Ermənistanın Gümrü şəhərindən keçərək Tbilisiyə gedən yüzillik dəmir yolu bərpa edilsin, Yerevan-Tbilisi avtomagistralı çəkilsin və bununla Ermənistanın avtomobil yollarının Tbilisidən başlayıb Xəzər dənizi limanları vasitəsilə Asiyaya gedən yollarla birləşdirilməsi mümkünləşsin və s.

Bunları genişliyi ilə xatırlatmaqda məqsədim odur ki, Azərbaycan dövləti və onun rəhbəri nəyi deyirsə, nəyə söz verirsə, onu da edir, realaşdırır, gerçəkliyə çevirir. Ermənistan isə ötən illər ərzində elə hey "xəyal etdikləri"nin, həmçinin illər öncə Bakıdakı "xəyalları"nın həsrəti ilə yaşamaqdadır. Ancaq reallıq və faktlar hər şeyi ortalığa qoyur. Ermənistan və ermənilər məhz qeyri-konstruktiv, pozucu fəaliyyətlərinə görə Azərbaycan tərəfindən bütün layihələrdən kənarda saxlanılıbdır. Çünki burada haqlı olan Azərbaycandır və Azərbaycanın da sözü keçir. Dünya Ermənistanla deyil, məhz Azərbaycanla məsləhətləşir, razılaşır. Bunlar həm də Heydər Əliyevin və onun siyasətinin layiqli davamçısı, ölkə Prezidenti İlham Əliyevin nə qədər uzaqgörən və müdrik lider, dövlət və siyasət adamı olmasının əyani ifadəsidir.

Müstəqil Azərbaycan bu gün dünyada tanınmış, seçilən ölkələrdən sayılır. Qısa müddətdə respublikamız dünyanın mötəbər iclaslarında, forumlarında, nüfuzlu qurumlarında öz sözünü deyir, qlobal məsələlərə münasibətini bildirir. Dövlət başçısının xarici ölkələrə işgüzar səfəri, respublikamıza gələn rəsmi qonaqlarla söhbət, imzalanan sazişlər, müqavilələr Azərbaycanın beynəlxalq aləmdə nüfuzunun artmasından xəbər verir. Bu, reallıqlar və bu faktla hesablaşmaq, onu respublikamızın xarici siyasətinin ən mühüm uğuru kimi qiymətləndirmək lazımdır. Etiraf edək ki, beynəlxalq əməkdaşlıq, o cümlədən iqtisadi sahədə əməkdaşlığın əsasını qoymaq və onu inkişaf etdirmək asan məsələ deyildir. Ölkəmizlə iş qurmaq istəyənlər buradakı siyasi, ictimai sosial-iqtisadi mühitin monitorinqini aparır, yaxın və uzaq gələcəyə hadisələrin inkişaf variantlarını hazırlayırlar.

Heydər Əliyevin dünyanın ən nüfuzlu təşkilatları, güclü dövlətlərin başçıları ilə Azərbaycanda yeni iqtisadi sistemin qurulması, respublikamızın dünya inteqrasiyasına qovuşması kimi qlobal problemlərə dair apardığı danışıqlar dünya ictimaiyyəti tərəfindən yüksək qiymətləndirilirdi. Məhz onun bilavasitə rəhbərliyi nəticəsində dünyanın ən nüfuzlu təşkilatları, o cümlədən Ümumdünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı, İslam İnkişaf Bankı və s. qurumlarla sıx əməkdaşlıq yaranmışdı.

Hamının yadındadır ki, neft kontraktlarının bağlanılmasına, Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin işə salınmasına mane olmaq üçün dövlət başçısı Heydər Əliyevə nə qədər təzyiqlər edildi. Lakin Azərbaycan Respublikasının Prezidenti milli dövlət mənafelərini rəhbər tutaraq, qarşıya qoyulan məqsədlərə nail oldu.

SSRİ dağıldıqdan sonra yeni müstəqil dövlətlərin bir çoxunda ilk illərdə başabəla islahatçılar iqtisadiyyatda dövlətin rolunun həddən artıq azaldılması, iqtisadiyyatın, demək olar ki, tam liberallaşdırılmasına nail oldular. Belə bir elmi əsası olmayan baxışların reallaşması çox ağır itkilərlə nəticələndi. Məsələn, dünya təcrübəsi göstərir ki, azad bazar münasibətləri qurmaq heç də o demək deyildir ki, ancaq iqtisadiyyatın həddi olmamalıdır, dövlət iqtisadiyyatdan tam uzaqlaşdırılmalıdır. Bu fikirlər xaosa aparan yollardır. Bu gün hətta Qərbin ən məşhur ekspertləri dövlətin əsassız olaraq rolunun azaldılmasının səhv olduğunu etiraf edirlər. Amma, necə deyərlər, iş işdən keçmişdir. Ona görə də bu kimi fundamental probdemləri dövlət başçısı diqqətində saxlayır. Bu bir həqiqətdir ki, Azərbaycan dövlətinin gücü, beynəlxalq aləmdə nüfuzu, iqtisadi qüdrəti müstəqilliyimizin ilk illəri ilə müqayisədə xeyli dərəcədə atmışdır və bu gün o, milli təhlükəsizliyini, ərazi bütövlüyünü təmin etmək iqtidarına, irimiqyaslı iqtisadi işlər görmək imkanına malikdir.

Yoxsulluqla mübarizə, ekoloji tarazlığın təmin olunması, milli iqtisadiyyatın stimullaşdırılması, ərzaq təhlükəsizliyi, qloballaşma ilə milli suverenliklər arasında optimal əlaqənin tapılması, sosial müdafiə məsələlərinin həlli dövlətin fəal iştirakı olmadan qeyri-mümkündür. Dövlətin müdaxiləsi, himayəsi aqrar sektorun dinamik inkişafı üçün lazımdır. Dövlətin himayəsi iqtisadi inikşafın strateji resursu sayılan sahibkarlığın inkişafı üçün lazımdır. Dövlətin himayəsi ölkənin iqtisadi təhlükəsizliyini həmin etmək üçün lazımdır.

Bir yazıda bütün məsələlərə münasibət bildirmək qeyri-mümkündür. Biz yalnız prinsipial xarakter daşıyan, miqyası, sosial-iqtisadi nəticələri baxımından taleyüklü məsələləri qeyd etdik. İqtisadi proseslərin təhlilində müqayisə metodu çox səmərə, düzgün inkişaf strategiyasını müəyyən etmək üçün zəngin informasiya verir. Bu gün respublikamızın iqtisadi inkişafı dinamik və sabit xarakter almışdır. Artım tempi MDB məkanından, eləcə də dünya iqtisadiyyatı üzrə olan göstəricilərdən xeyli yüksəkdir. Bu çox mütərəqqi meyldir və onun uzun bir dövr üçün qalacağına əminəm. Belə inkişaf dinamikası keyfiyyətli inkişaf, keyfiyyətli həyat səviyyəsinə nail olmaq üçün çox vacibdir.

Biz mürəkkəb, ziddiyyətli münasibətlər, konfliktlərlə dolu olan dünyada yaşayırıq. İnkişaf o vaxt olur ki, ölkə daxilində taleyüklü prolemlərə baxışlarda konsensus əldə edilir. Cəmiyyətdə konsensus stabilliyin, tərəqqinin təminatçısıdır. Dünyanın ən məşhur ekspertləri konsensusa tərəqqinin ən yaradıcı, ən güclü faktoru kimi baxırlar. Heç şübhəsiz ki, ayrı-ayrı problemlər, onun həlli üsullarında fikir ayrılığı ola bilər və bu da təbiidir. Amma cəsarətlə qeyd etmək olar ki, respublikamızın dinamik inkişafı əhəmiyyətli dərəcədə ölkədə konsensusun mövcudluğu ilə bağlıdır.

Müstəqilliyin ilk illərində cəmiyyətimizdə ictimai, sosial-iqtisadi həyata dair radikal baxışların, qarşıdurmanın nə qədər təhlükəli olduğunu bir anlığa xatırlayaq. Bu gün isə böyük sevinclə, bir ziyalı, bir vətəndaş kimi, bildirmək istərdim ki, radikal baxışlar qat-qat azalmış, taleyüklü strateji sosial-iqtisadi problemlərə münasibətdə konsensus formalaşmışdır ki, bunu heç bir qüvvə dəyişdirə bilməz.

Azərbaycanın taleyüklü inkişaf proqramı ətrafında cəmiyyət daxilində konsensusun yaradılması, milli mənafelərə xidmət edən və yüksək həyat tərzinə təminat verən dövlətin strateji siyasəti qloballaşan dünyanın inkişaf konteksində respublikamızın iqtisadi təhlükəsizliyinin təmini, Azərbaycanın gələcəyi naminə yaranmış ümumxalq birliyi, hamımız üçün müqəddəslik qədər əziz, doğma nailiyyət Azərbaycan dövlətinin, Azərbaycan Respublikasının Prezidentinin tarixi uğurudur.

Ziyad SƏMƏDZADƏ,
Milli Məclisin deputatı,
akademik